*Fil. e.d., prof. Sayalı Sadıqova*
*Əfruz Qurbanova*

# AZƏRBAYCAN TERMİNOLOGİYASI VEB-PORTALININ YARADILMASI DÖVRÜN TƏLƏBİDİR

Dünyanın bütün ölkələrində formalaşmaqda olan informasiya cəmiyyəti dövründə yeni biliklərin əldə olunması və sürətlə artması, yeni fəaliyyət sahələrinin inkişafı və s. ilə əlaqədar olaraq dillərdə digər məsələlərlə yanaşı terminlərin də əhəmiyyəti artır. Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı nəticəsində elmin inkişafı, qabaqcıl informasiya texnologiyalarının bütün sahələrə nüfuz etməsinə geniş imkanlar yaranır, İKT-xidmətlərinin genişləndirilməsi məsələlərinə böyük diqqət yetirilir. Elm və texnikanın müxtəlif sahələrində əldə olunan nailiyyətlər, yeniliklər bu sahələrə aid yeni terminlərin yaranmasına zəmin yaradır. Bununla əlaqədar olaraq son dövrlər bu sahələrə dair izahlı və tərcümə lüğətlərinə tələbat daha da artmışdır.

Hər il elmin və texnikanın müxtəlif sahələrinə aid onlarla terminoloji lüğətlər nəşr olunur. Həmçinin, alim və mütəxəssislər, elmi kollektivlər tərəfindən müxtəlif elm sahələri üzrə vaxtaşırı olaraq yeni terminlər yaradılır, terminlərin izahlı lüğətləri hazırlanaraq nəşr etdirilir. AMEA Rəyasət Heyəti yanında fəaliyyət göstərən Terminologiya Komissiyasının qərarı ilə Azərbaycanda elm və texnikanın müxtəlif sahələrinə aid təxminən 200-ə yaxın terminoloji lüğət nəşr olunmuşdur. Bu lüğətlərin müxtəlif ictimai kitabxanalarla yanaşı, dilimizdə işlənən, eləcə də yeni yaranan terminlərin, mövcud terminoloji lüğətlərin toplanması və tətbiqinin sürətləndirilməsi, terminoloji lüğətlərin elektron variantlarının virtual məkanda yerləşdirilməsi Azərbaycan dilinin terminoloji arealının müasir metodlarla zənginləşməsini zəruri edir. Bu lüğətlərin hər bir kəs üçün istifadənin təmin edilməsi üçün müxtəlif elm sahələrinə aid terminlərin virtual məkanda sistemli şəkildə toplanması, bu terminoloji lüğətlərin üzərində elmi-praktiki araşdırmaların aparılması, təklif və tövsiyələrin işlənməsi, bir sözlə Azərbaycanın müstəqil terminologiya siyasətinin həyata keçirilməsi məsələlərinin həlli müasir dövrün ən ümdə tələblərindən

biridir. Bu kimi amillər isə ölkəmizdə müasir dövrün tələblərinə uyğun Azərbaycan terminlərinə dair portalın yaradılması məsələlərini zəruriləşdirir.

AMEA Rəyasət Heyətinin qərarı ilə Terminologiya Komissiyası ilə birgə Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu tərəfindən Azərbaycan terminlərinə aid www.azterm.az veb-portalı yaradılmışdır. Azərbaycan terminologiyası veb-portalının yaradılmasında əsas məqsəd dilimizdə olan mövcud terminoloji lüğətləri ilk dəfə olaraq vahid mərkəzə toplamaq, elmin və texnikanın müxtəlif sahələrində çalışanlara gündəlik işlərində rastlaşdıqları terminlərin izahını və müxtəlif dillərdə qarşılığını asanlıqla əldə etməyə yardımçı olmaq, həmçinin termin yaradıcılığına cəmiyyətin müxtəlif təbəqələrini, o cümlədən xaricdə yaşayan soydaşlarımızı cəlb etməkdir.

Veb-portalda elmin və texnikanın müxtəlif sahələrinə aid terminoloji lüğətlər yerləşdirilmişdir. Torpaqşünaslıq və aqrokimya, fövqəladə hallar, kino, televiziya, radio, fizika-riyaziyyat, baytarlıq, tarix və s. sahələri əhatə edən bu terminoloji lüğətlər (birdilli izahlı, ikidilli tərcümə və s.) haqqında portalın kitabxana bölməsində qısa məlumat verilir. Qeyd edək ki, bütün mövcud terminoloji lüğətlərin portalda yerləşdirilməsi nəzərdə tutulub. Portalda dilimizdə işlənən ümumi terminlərlə yanaşı, yeni yaranan və ayrı-ayrı sahələrə aid anlayışlar da daxil edilir.

Portalda Terminologiya Komissiyasının strukturu, Azərbaycan dilinin tətbiqi və inkişafı istiqamətində dövlət tərəfindən atılan addımlar, qəbul edilən qərar, fərman və sərəncamlar, terminologiya fəaliyyəti ilə bağlı digər mühüm saytlara linklər də öz əksini tapmışdır. Azərbaycanda və xarici ölkələrdə terminoloji fəaliyyətlə bağlı yeniliklər mütəmadi olaraq portalda yerləşdirilir.

Portalda terminologiya ilə bağlı digər kitabların, həmçinin "Terminologiya məsələləri" jurnalının elektron variantlarının yerləşdirilməsi də nəzərdə tutulub.

www.azterm.az portalı açıq arxitektura və axtarış imkanlarına malikdir, portalın kontentinə (məzmununa) toxunmadan onu daima inkişaf etdirmək imkanı vardır.

Bundan əlavə, mövcud terminlərin YUNESKO-nun nəzdində fəa-

liyyət göstərən Terminologiya üzrə Beynəlxalq İnformasiya Mərkəzinin (International Information Centre for Terminology) və Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO - International Organization for Standardization) tələblərinə uyğunlaşdırılması, eləcə də Azərbaycan terminoloji reyestrinin və bu sahədə informasiya bankının yaradılması üzərində də işlər aparılır. İlkin olaraq isə respublika üzrə terminoloji lüğətlərin toplanması işləri həyata keçirilir. Azərbaycan terminlərinə aid portalın yaradılması xaricdə yaşayan soydaşlarımıza da dilimizin qanunauyğunluqlarına əsaslanan terminlərdən istifadə etmək imkanı verir. Həmçinin terminləri yaradan alimlərin, mütəxəssislərin, elmi kollektivlərin müəlliflik hüquqlarının qorunması, yeni terminləri qəbul edərkən onların indiyə qədər qəbul olunmuş lüğətlərdə olub-olmaması haqqında məlumatların toplanılması, dərc olunan kitabların, xüsusən də dərsliklərin terminoloji tələblərə uyğunluğunun yoxlanılması, bu işlərin monitorinqinin təşkili məsələlərinə də ciddi diqqət yetirilir.